**“Pambıqçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Pambıqçılıq haqqında” Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli, 1012-IIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Pambıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanunun 14.5-ci maddəsində nəzərdə tutulmuş pambıq qəbulu qəbzinin forması və verilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanunun 15.3-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini və 5.0.2-ci (pambıqçılığın klasterlər əsasında inkişafının təmin edilməsi üzrə), 5.0.5-ci, 5.0.7-ci maddələrində nəzərdə tutulmuş vəzifələri həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.6. öz səlahiyyətləri daxilində “Pambıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. “Pambıqçılıq haqqında” Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini, o cümlədən həmin Qanunun 5.0.1-ci (pambıqçılıq üzrə normativ hüquqi aktların qəbul edilməsi üzrə) və 5.0.2-ci (pambıqçılığın inkişafına dair dövlət proqramlarının təsdiq edilməsi üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 14.5-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 7.6-cı, 17.4-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini, o cümlədən həmin Qanunun 5.0.1-ci, 5.0.3-cü,

5.0.4-cü, 5.0.6-cı, 5.0.7-ci və 5.0.8-ci (pambıqçılıq sahəsində mütəxəssislərin hazırlanmasının, ixtisaslarının artırılmasının təşkil edilməsi üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;[1]

2.4. həmin Qanunun 5.0.2-ci (pambıqçılığın klasterlər əsasında inkişafının təmin edilməsi üzrə) və 5.0.5-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi ilə razılaşdırmaqla həyata keçirir;[2]

2.5. həmin Qanunun 15.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini qanunvericiliklə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və *dövlət standartlarının və standartlaşdırma üzrə digər normativ sənədlərin tələblərinə əməl olunması ilə bağlı* Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirirlər;[3]

2.6. həmin Qanunun 16.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2010-cu il
№ 293

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 3 mart 2011-ci il tarixli **390** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 mart 2011-ci il, № 50; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 171)**
2. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 may 2014-cü il, № 101)**
3. 31 oktyabr 2014-cü il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 1 noyabr 2014-cü il, № 238; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1210)**
4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 3 mart 2011-ci il tarixli **390** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 mart 2011-ci il, № 50; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 171)** ilə 2.3-cü bənddə "**5.0.6-cı**" sözlərindən sonra "**, 5.0.7-ci**" sözləri əlavə edilmişdir.

[2] 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 may 2014-cü il, № 101)** ilə 2.4-cü bəndində "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)** ilə 2.4-cü bənddən "**və Sənaye**" sözləri çıxarılmışdır.

[3] 3 mart 2011-ci il tarixli **390** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 mart 2011-ci il, № 50; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 171)** ilə 2.4-cü bənd 2.6-cı bənd hesab edilmişdir və Fərmana yeni məzmunda 2.4-cü və 2.5-ci bəndlər əlavə edilmişdir.

31 oktyabr 2014-cü il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 1 noyabr 2014-cü il, № 238; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 10, maddə 1210)** ilə 2.5-ci bəndinə "**Nazirliyi və**" sözlərindən sonra "**dövlət standartlarının və standartlaşdırma üzrə digər normativ sənədlərin tələblərinə əməl olunması ilə bağlı**" sözləri əlavə edilmişdir.